**UOT 94 (479.24)**

# 1877-Cİ İL NUXA-GÖYNÜK ÜSYANI HAQQINDA

**T.G.BEHBUDOVA**
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu***
***hacihasanov@mail.ru***

*Məqalədə 1877-ci ilin oktyabrnda Nuxa şəhəri və Göynük kənd əhalisinin çar hakimlərinin zülmünə qarşı çevrilmiş üsyanından bəhs edilir.*

**Açar sözlər:** üsyan, qoşun, kəndli, poçt, kənd

Şimali Azərbaycanı bürüyən üsyanlar yalnız Quba qəzasını deyil, habelə Nuxa qəzasını da əhatə etmişdi. Oktyabr ayının əvvəllərində, 1876-cı il noyabrın 14-də Yelizavetpol qubernatoru təyin edilmiş general-mayor knyaz Çavçavadze Nuxa qəzasında üsyanın baş qaldırması və Samur dairəsindən yeni üsyançı dəstələrinin buraya gəlməsi haqqında məlumat aldıqdan sonra o, Alazan qoşunlarının komandanlığından Nuxa şəhərinə müvəqqəti olaraq, yerli batalyonun göndərilməsini xahiş etmişdi. Belə tələbin yerinə yetirilməsi mümkün olmadığı üçün knyaz Andronikovun yerinə yeni təyin olunmuş qeneral-mayor knyaz Orbeliani şəhərdəki qoşun hissələri ilə kifayətlənməyi məsləhət görmüşdü [1, 186].

Oktyabrın 18-də Nuxa qəzasında kəndli həyəcanlarının başlanması ilə əlaqədar olaraq tərkibi dördüncü və səkkizinci nizami və üçüncü piyada rotadan ibarət Qara dəniz alayı qeneral-mayor knyaz Çavçavadzenin [2, 5] başçılığı ilə İlisu dərəsini keçərək Qax kəndinə doğru hərəkət etməyə vadar oldu. Knyaz Çavçavadze Nuxada qalaraq yürüşə hazırlaşırdı. O, hərbi qüvvələrlə Vəndama yola düşərkən üsyançılar Quba qəzasının sərhədlərində görünməyə başladılar. Onlar bütün dağ ərazilərini gəzərək üsyançı dəstələr toplayırdılar.

Nuxa qəzasında üsyan genişlənməkdə davam edirdi. Oktyabrın sonunda qubernatora tabe olan quberniyanın hərbi hissələrinin komandanı general-leytenant Mamatsov ordusunun ali komandanlığına yazdığı raportunda göstərirdi ki, dağlılar Nuxanın və digər qəzaların əhalisi ilə gizli əlaqə saxlayaraq onları üsyan etməyə çağırırlar və buna nail olmuşdular. Eyni zamanda Mamatsov "Antsux naibi Şaqo və axtılı Teyyub bəyin başçılığı ilə Nuxa qəzasına hücumu müzakirə etmək üçün Samur dairəsində çoxlu sayda üsyançı dəstələrinin toplanması" haqqında məlumat almışdı [1, 204].

Oktyabrın 29-da səhər erkən Nuxa qəzasının hüdüdlarını keçən dağıstanlılar başda ansux naibi Şaqo Nuxa şəhərinə və naib Həsən isə Qax kəndinə yiyələnməyə çalışırdılar. Üsyançılara qarşı döyüşlərdə iştirak etmiş rus hərbçisi polkovnik fon Klimenə görə Şaqo və Həsən Nuxa və Qaxı tutmaqla Yelizavetpol quberniyası əhalisini bütövlükdə üsyana qaldırmaq və üsyançıların sayını artırmaq niyyətində idilər [3, 2].

Üsyanın Dağıstanın hüdudlarını aşaraq Nuxa qəzasını da bürüməsini Mamatsov belə izah edirdi: "Quba qəzasında üsyan başladığından mən və Orbeliani tabeliyimizdəki hərbi qüvvələrdən dəstə təşkil edərək, Çavçavvadzenin başçılığı ilə Qubanın müdafiəsinə və Axtıya göndərdik. Bundan istifadə edən samurlular Nuxa qəzasına soxularaq, bizim üzərimizə hücuma atıldılar" [4, 237].

Dağlıların Nuxa qəzasına daxil olması burada üsyanın başlanmasını tezləşdirmiş oldu. Üsyana birinci başlayan Baş Göynük kəndinin kəndliləri oldular. Baş göynüklülər teleqraf xətlərini kəsərək ətraf kəndlərin əhalisini də üsyana qaldıra bilmişdilər [3, 2]. Baş Göynük kəndi ilə birlikdə ətraf kəndlərinin üsyana qalxması, həmçinin onlara dağıstanlıların da qoşulması burada vəziyyəti o dərəcədə gərginləşdirmişdi ki, Aşağı Göynükdə yerləşən poçt stansiyasında olan polkovnik Şimanovski qubernatorun göstərişinə əsasən kəndlilər üzərində nəzarəti həyata keçirən buradakı Yelizavetpol batalyonunun tağımı və polis yarımtağımı ilə geri çəkilməyə məcbur olmuşdu [3, 3]. Üsyançıların Nuxa şəhərini tutmasından ehtiyat edən çar hökuməti bir sıra tədbirləri həyata keçirməyə məcbur olmuşdu. Belə ki, Aşağı Göynük kəndində ətraf kəndlərdəki həyəcanların qarşısını almaq üçün qərarlaşan Yelizavetpol batalyonunun başçısı polkovnik Şimanovskinin sərəncamına Nuxa şəhərindən Labinsk kazak alayından 200 nəfər kazak və 4 silahlı atlı kazak batareya tağımı göndərilmişdi, ona möhkəmləndirilmiş hərbi hissələrlə Nuxa şəhərinin mühafizəsini təşkil etmək məqsədilə Koxmux çölündə yerləşməsini və üsyançılara daha münasib şəraitdə nəzarət etmək məqsədilə Yelizavetpol quberniyası hərbi hissəsinin tərkibinə, lazım gələrdisə, əlavə olaraq Zaqataladan üç piyada rota və iki silahlı dəstə tələb edilməsi barəsində göstəriş verilmişdi [1, 205].

Ayın axırlarında general-mayor Mamatsovun başçılıq etdiyi hərbi hissələrin tərkibi Yelizavetpolun birinci və dördüncü rotaları, Şuşa yerli batalyonunun 2 rotası, Nuxanın yerli komandası, 400 nəfərlik Labinsk və 100-ə yaxın adamı olan Xapyor kazak alayı, Kuban kazaklarının dördüncü atlı batareyasından ibarət idi və belə hərbi qüvvələr Nuxada yerləşirdi və həmin gün 400 nəfərlik Nuxa atlı drujinası isə Samur dairəsi ilə sərhəddə yerləşən məntəqəyə göndərildi. Eyni zamanda o, knyaz Orbelianiyə burada möhkəmlənmək məqsədilə Nuxaya gəlməyini təklif etdi. Oktyabrın 30-da axşama yaxın ona çatdırılmış məlumata görə "4 min nəfərlik ləzgi dəstəsi bir müddət ərzində Samur dairəsinin Burca və Xnov aullarında toplanmış və Şin dərəsindən keçərək Şin və Yuxarı Göynük kəndlərində peyda olmuş, kəndlərin əhalisi isə üsyançılara qoşulub teleqraf xətlərini xarab etmiş və poçt atlarını aparmış, bir neçə taciri və stansiya evlərini qarət etmişlər" [1, 205]. Bununla əlaqədar olaraq qəzada bir sıra tədbirlərin

görülməsi lazım gəlirdi: Labinski kazak alayının iki yüzlüyü və dördüncü kazak batareyasının atlı silahlı tağımı Nuxa şəhərindən ətraf əraziləri nəzarətdə etmək üçün saxlanmış birinci yerli Yelizavetpol batalyonunun yarım rotası yerləşdirilmiş Aşağı Göynük kəndinə yeridilir. Bu zaman Aşağı Göynükdəki Yelizaveipol batalyonunun komandiri polkovnik Şimanovskiyə isə səlahiyyətindəki hərbi qüvvələrdə Koxmux çolünə çəkilərək Nuxa yolunun təhlükəzisliyini təmin etmək və üsyançı dəstələri nəzarətdə saxlamaq üçün daha münasib mövqelərə yiyələnmək tapşırılmışdı. Yelizavetpol hərbi qüvvələrinin gücləndirilməci məqsədilə Zaqataladan iki artilleriya qurğusu ilə birlikdə üç piyada rotasının göndərilməsi tələb olunmuşdu [1, 206].

Oktyabrın 31-də səhər açılanda yüzlərlə atlı silahlı kazak və 150 nəfərlik piyada hissələrdən ibarət hökümət hərbi qüvvələri Baş Göynük kəndi yaxınlığında birləşib, Nuxa şəhərinə doğru geri çəkilməyə başladı. Baş Göynük kəndinin 7 verstliyində - Qarabulaq kəndi yaxınlığında Baş və Aşağı Göynük, Layski, Biləcik, Yuxarı Şabalıd və digər kəndlərin kəndlilərinin də qoşulduğu birləşmiş üsyançılar hərbi dəstələri qəfildən yaxaladılar. Mühasirəyə düçar olmuş polkovnik Şimanovski rəqiblərinin tüfəng və artilleriya hücumundan mühafizə olunaraq, qabaqcadan üsyançılar tərəfindən tutulmuş Qarabulaq dərə keçidinə doğru üz tutdu və döyüşlərini davam etdirdi. Lakin Nuxada Şimanovskinin düşdüyü ağır vəziyyətdən xəbər tutan qeneral-mayor Mamatsov şəhərdəki hərbi qüvvələri olan Şuşa yerli batalyonu rotası və Xapyor kazak alayının yüzlüyü ilə birlikdə mühasirəyə düşmüş hərbiçilərin köməyinə tələsir. O, Yelizavetpol yerli batalyonun rotasını, Nuxa yerli komandanlığının bir hissəsini və Nuxa atlı drujinasını yüzlüyünü Kişçayda ehtiyatda saxlamışdı. Nuxa şəhərinin 8 verstliyində hərbi dəstələr birləşdilər. Tezliklə Şimanovskinin hərbi hissələrinə birləşməyə nail olan qeneral-mayor Mamatsov ümumi komandanlığı ələ alaraq, üsyançılara qarşı güclü müqavimətini yaratmış oldu. Keyfiyyətcə yaxşı silahlanmış hökumət qoşunları tərəfindən təqib olunan üsyançı dəstələr İnça kəndinə irəliləyərək yolun sol tərəfindəki təpəlikləri tutdular. Silahlardan atəş aça-aça Qarabulaq kəndinə yaxınlaşan hərbi dəstələr üsyançıların müqavimətini qıra bildilər. Hökumət qüvvələrinə üstün gələcəyinə ümüdlərini itirən üsyançılar dağlara, İnça və Koxmux kəndləri istiqamətində dağlara geri çəkildilər [3, 3].

Digər hissəsi 300 nəfərlik atlı üsyançı dəstə isə Nuxa şəhəri tərəfə istiqamətləndi. Onlar şəhərə hücum etmək və yaxud teleqraf xəttini məhv etmək istəyirdilər. Üsyançı dəstəni təqib edən kazaklar onları geri oturtmağa nail olurlar. Belə olan təqdirdə bu üsyançı dəstəsi də itki verərək İnça və Koxmux tərəfə geri çəkilirlər. Bu zaman üsyançılara Biləcik, Şin, Baş Göynük, Aşağı Göynük, Baş Layski, Aşağı Layski, Baş Şabalıd, Aşağı Şabalıd, İnça, Cunut, Mirzəbəyli, Qarabulaq, Koxmux və Oxut kəndlərindən gəlmiş çoxli sayda üsyançılar qoşulmuşdular [3, 4].

İnça və Koxmux dağ silsiləsində toplanmış üsyançı dəstələr Oxut və Kiş kəndlərindən dövrələmə hərəkəti ilə asanlıqla Nuxa şəhərinə gələ bilərdilər və buna əmin olan general-leytenant Mamatsov onların qarşısını almaq üçün Kox-

mux çölünə gəlmişdi. Ətraf təpəlikləri ələ keçirməyə çalışan üsyançı qüvvələrə piyada zəncir və artilleriya tağımı tərəfindən açılan sərrast atəşlər üsyançılar arasında çaxnaşma yaratmışdı [1, 207].

Tərəflər arasında baş verən döyüş axşam saat 7-yə kimi davam etmişdi. Qaranlığın düşməsi ilə tərəflər arasında atışma dayandırılmışdı. Hərbi dəstə Nuxa şəhərini gecə hücumundan qorumaq məqsədilə Kişçay kəndi yaxınlığında gecələməli olmuşdu. Müxtəlif hissələrə pərən-pərən salışmış üsyançılar birləşərək Nuxa şəhərinə hücuma keçməyə hazırlaşırdılar [3, 4]. Gecə kəşfiyyatçıların gətirdiyi məlumatda deyilirdi ki, 8 min nəfərə kimi artmış üsyançı dəstələr Nuxa şəhərinə müxtəlif tərəfdən hücum etmək niyyətindədirlər. 20 min həyəcanlı yerli əhalinin də üsyançılara qoşulmaq qorxusu general-mayor Mamatsovu məcbur etmişdi ki, Nuxa şəhərini hər tərəfdən piketlərlə əhatə etsin və burada sakin olmuş azsaylı ermənilərə silah paylasın. Gecə bir neçə dəfə müxtəlif tərəflərdən şəhərə daxil olmağa çalışan üsyançılar, hər tərəfdən gözətçi dəstələri ilə əhatə olunduqlarını hiss etdilər və hökumət qoşunlarının həm sayca çox və həm də keyfiyyətcə yaxşı silahlanmasını görüb şəhərə daxil olmağa cəhd etmədilər [1, 207]. Noyabrın 1-də bütün günü üsyançılarla hərbi hissələr arasında atışmalar oldu. Burada axşama kimi davam edən döyüşdən sonra üsyançılar şəhəri ələ keçirə bilməyəcəklərini anlayaraq Baş Göynük kəndinə geri çəkilmişdilər. Sonrakı gün dağıstanlılır Şin dərəsindən keçməklə Samur dairəsinə qayıtdılar. Yerli əhali silahı yerə qoymamışdı. Noyabr ayının 1-də hərbi hissələr Kişçayda kiçik bir hərbi dəstəni ehtiyatda saxlayaraq Koxmux çölündə toplandı [3, 5].

Lakin üsyan davam edirdi. Həmin gün Baş Göynükdəki üsyançıları darmadağın etmək üçün buraya göndərilmiş kapitan Sakmin Qarabalaq kəndi yaxınlığında üsyançıların qurmuş olduqları pusquya düşdülər. Hərbçilər bir neçə dəfə hücuma keçmiş, lakin hücumlar nəticəsiz olmuşdu. Qarabulaq dərəsini keçməyə çalışan hərbi dəstələr üsyançıların hücumlarına məruz qalırdı. Düzənlik sahəyə qalxdıqdan sonra hərbi dəstə kare quraraq, səhərədək belə vəziyyətdə qalmışdı. Sübhdən onlar üsyançılarla döyüşləri davam etdirdilər və hərəkət edərək Koxmux çölündə hərbi qüvvələri qarşılamağa göndərilmiş Nuxa hökumət dəstələri ilə birləşdilər. Artilleriya atəşləri hərbi hissələrə üstün olmağa imkan vermiş oldu. Güclü artilleriya atəşlərinə məruz qalan üsyançılar hərbi hissələrə yeni əlavə hərbi qüvvələrin qoşulduğundan axşama yaxın geri çəkilməyə məcbur oldular. Həmin gün kapitan Sakminin hərbi dəstəsi Nuxaya gəlib çıxdı [1, 211]. Üsyanda yaxından iştirak etmiş yerli üsyançılar isə hökumətin təqiblərindən qorunmaq üçün dağlara çəkilib orada sığınacaq tapmalı olmuşdular [1, 206-208] və bəziləri qaçaq dəstələri yaradaraq mübarizəsini davam etdirmişdilər.

Oktyabrın axırları - noyabrın əvvəllərində hökumət qoşunları ilə üsyançı dəstələr arasında toqquşmalar əsasən Nuxa qəzasının qərb hissəsində davam edirdi. Təbiidir ki, yerli əhalinin üsyançılara münasibəti yaxşı idi. Üsyançılara qarşı cəza tədbirlərinin görülməsi və onların edam edilməsi ona səbəb oldu ki,

noyabrın 5-də Nuxa qəzasının şərqində Samur dairəsi Ağalux kənd sakini, üsyan təşəbbüsünü irəli sürmüş Molla Abdulla Əfəndinin çıxışına heç bir yerli kəndli qoşulmadı. Lakin o, öz ətrafına Xaçmaz qəsəbəsinin Yuxarı Erik kəndinin əhalisinin az bir hissəsini cəlb edə bildi. Molla Abdulla Əfəndi Xalxala və Xaçmaza "təhrikçi çağırışlar" göndərmişdi. Bundan xəbər tutmuş qubernator buraya baş verəcək üsyanın qarşısını almaq üçün hərbi qüvvələr göndərmişdi. Molla Abdulla Əfəndinin başçılıgı ilə başlanacaq üsyanın qarşısı hərbi hissələr tərəfindən tezliklə alındı [1, 212]. Bu, üsyançıların axırıncı cəhdi idi.

Nuxa qəzasında baş vermiş üsyan zamanı hökumət qoşun hissələri ilə döyüşlərdə 200-dən 300-ə qədər üsyançı öldürülmüşdü [5, 99]. Qubernator general-leytenant Mamatsov yazırdı: "Noyabrın 2-də çoxçaylı dağıstanlı və Nuxa qəzasının 12 kəndin üsyançıları ilə üçgünlük döyüşdən sonra düşmən məhv edilmiş və dağıdılmışdır. Üsyançılardan 300 nəfər öldürülmüş və ondan iki dəfə çoxu yaralanmışdır. Bu gün hərbi hissələr istirahət edirlər. Onlar sabahdan başlayaraq kəndlərin təmizlənməsi işi ilə məşğul olacaqlar. Çoxlu əsir götürülən vardır" [4, 255]. O, üsyançılara qarşı nifrət bəsləyən polkovnik Şimanovskinin başçılığı altında üsyançıları təqib etmək məqsədilə noyabrın 2-də Nuxa atlı yüzlük drujinasını və üsyanlarda iştirak etmiş kəndləri cəzalandırmaq və qəzanı üsyançılardan təmizləmək üçün isə noyabrın 4-də Nuxa şəhərindən tərkibi üç yüz nəfərlik piyada rotası, iki kazak yüzlüyü və iki yüz atlı silahlı göndərmişdi. 1877-ci il noyabrın 6-da Yelizavetpol qubernatoru vəzifəsini təhvil almış qeneral-leytenant Mamatsov [3, 4] üsyançıların amansızcasına represiyalarına başladı.

Baş Göynük kəndinin 13 və Aşağı Göynük kəndinin 25 sakini üsyanda fəal iştirak etdiklərinə görə həbs olundular və onların evlərinə od vuruldu. Çar hərbçilərinin hesablamalarına görə Nuxa qəzasının Baş Göynük kəndinin 384, Aşağı Göynük kəndinin 280, Biləcik kəndinin 200, Şin kəndinin 110, İnça kəndinin 109, Baş Laysk, Aşağı Laysk, Birinci Cunut və İkinci Cunut kəndlərinin 311, Baş Şabalıd və Aşağı Şabalıd kəndlərinin 208, Zunut və Mirzəbəyli kəndlərinin 158, Qarabulaq, Koxmux və Oxut kəndlərinin 252 sakini üsyana qoşulmuş və rus hərbi hissələrinə qarşı güclü müqavimət göstərmişdilər [3, 17]. Bu kəndlilərin hamısını ciddi cəzalar gözləyirdi. Nuxa qəzasında hərəkətə başlayan çarin cəza maşini bir çox ailələri başsız qoymuş, bir sıra evlər yandırılmış, üsyan iştirakçılarının demək olar ki, hamısını katorga sürgününə göndərmişdi.

Beləliklə, üsyan amansızlıqla yatırıldı. 1877-ci ilin Nuxa-Göynük üsyanı xalqın çarizmin müstəmləkə sisteminə qarşı yönəlmiş etirazı idi. Bu Şimali Azərbaycanda ölkənin azadlığı uğrunda mübarizə aparan qüvvələrin hər zaman hazır vəziyyətdə olduğunu bir daha göstərdi.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi, iş 1664(1).
1. Rusiya Dövlət Tarix Arxivi. F. 1268, siy. 21, iş. 162.

2. Rusiya Dövlət Tarix Arxivi. F. 1268, siy. 21, iş. 186.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.45, siy.2, iş 132.
4. Гюлмалиев М.М. Крестьянское движение в Азербайджане в последней четверти XIX века. Баку: Елм 1984, 174,с .


## О ВОССТАНИИ НУХА – ГЕЙНУК В 1877 ГОДУ


**Т.Г.БЕХБУДОВА**


**РЕЗЮМЕ**


В данной статье речь идет о восстании города Нуха и жителей деревни Гойнук в октябре 1877 года против вооруженных сил царского правительства.



**Ключевые слова**: борьба, войска, крестьянин, почта, село


## ABOUT NUKHA – GOYNUK RISINGS OF 1877


**T.G.BEHBUDOVA**


**SUMMARY**


The article according researches such important question as Nukha – Goynuk risings of 1877 with reference to primary sources and literature. The reasons, course and results of the rising are analyzed.



**Key words: rising:** troops, peasant, post, village